Azərbaycan Respublikası
Mədəniyyət Nazirliyi

F. Köçərli adına Respublika
Uşaq Kitabxanası



# Uşaq ədəbiyyatımızın təbliğatçısı
# Zahid Xəlil

**Zahid Xəlilin 80 illik yubileyi münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait**

**Bakı – 2022**

**Tərtibçi:** **Könül Səmədzadə**

**İxtisas redaktoru və buraxılışa məsul:** **Şəhla Qəmbərova**
*Əməkdar mədəniyyət işçisi*

**Redaktor:** **Ruhiyyə Məmmədli**

**“Uşaq ədəbiyyatımızın təbliğatçısı”** - **Zahid Xəlilin 80 illik yubileyi** münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait / Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, F.Köçərli ad. Respublika Uşaq Kitabxanası; tərt.ed. S. Könül; ixt.red. və burax. məsul Ş. Qəmbərova; red. R.Məmmədli - Bakı: F. Köçərli ad. Respublika Uşaq Kitabxanası, 2022. – 49 s.

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2022**

## Giriş

Taleyini bədii söz sənətinə həsr edən sənətkar həyatı və yaradıcılığını qələmə almaq, onun yaradıcılıq laboratoriyasını başdan-ayağa araşdırmaq həm çətin, həm də böyük məsuliyyət tələb edir. Əgər həmin qələm sahibinin yaradıcılıq ampulası çoxşaxəlidirsə, çoxjanrlıdırsa, çəkilən çətinliyin, məsuliyyətin dərəcə həddi bir neçə qat artır. Onu da qeyd etsək ki, bədii yaradıcılıq bötövlükdə sənətkar ixtirasıdır, novatorluqdur, poetik kəşflər sistemidir, obrazlar dünyasıdır, söz demək bir qədər də mümkünsüz olur. Əgər uşaq şair-yazıçısından söz açmalı olsaq, onun orijinal bədii yaradıcılığından danışsaq, üslubu və poetik bədii dili və şair haqqında fikir yürütməli olsaq, bu mürəkkəblik daha çox üzə çıxar. Yenicə dünyaya göz açmış körpə və uşaqları söz sehrinə salaraq, poetik təfəkkürün gücü və onların estetik-mənəvi tərbiyyəsini formalaşdıran, bədii zövqünü zənginləşdirən bir sənətkarın meydana gəlməsi üçün gərgin zəhmətə qatlaşmaq tələb olunur.

Yaradıcılığından söz açdığımız bu qələm sahibi öz poetik dünyası ilə bədii təfəkkür sferasında gündən-günə püxtələşən, üslubunu sabitləşdirən, təkrarolunmaz obrazlar yaradan Zahid Xəlildir.

Gəlin bir ömürdə həm yazıçılıq, həm jurnalistlik, həm alimlik, həm də müəllimlik sənətini məharətlə sintez halında birləşdirən Zahid Xəlilin yaradıcılıq fəaliyyətinə qısa bir nəzər salaq.

## Bölmə I

***Bizim bağçamıza***
***Bir çəmən düşüb.***
***Sürüşüb baharın***
***Çiynindən düşüb***

Ədəbiyyatımızda insanın daxili aləminə nüfuz edilməsi, məcara xarakterli əhvalatları hiss və düşüncələr axınının əvəz etməsi, mənəvi aləmin tərənnümünün təsvirçiliyi üstələməsi müəyyən dərəcədə oxucuların yeni tələbatı ilə bağlıdır. Haqqında söz açacağımız uşaq şairi Zahid Xəlil uşaq ədəbiyyatında, xüsusilə uşaq nəsrində belə əsərlər yaratmağa səy göstərən və buna əsasən nail olan şairlərimizdəndir.

Bəli bu il Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrindən biri, istedadlı filoloq alim, jurnalist, respublikanın əməkdar müəllimi Zahid Xəlilin-Xəlilov Zahid Abdulla oğlunun 80 yaşı tamam olur. Zahid Xəlil 1942-ci ildə Yevlax şəhərində doğulub. 1959-cu ildə orta məktəbi Yevlax şəhərindəki M.Ə.Sabir adına 2 nömrəli məktəbdə almışdır. 1964-cü ildə hazırkı Bakı dövlət Unuversitetinin filologiya fakültəsinin jurnalistika bölməsini bitirib. Azərbaycan Dövlət Universitetinin jurnalistika fakültəsini müvəffəqiyyətlə bitirən Z.Xəlil sonralar müxtəlif mətbuat orqanlarında, ədəbi işçi, məsul katib, redaktor vəzifələrində çalışmışdır. Lakin işlədiyi müddət ərzində bədii və elmi yaradıcılıqla müntəzəm məşğul olmuş, 1969-cu ildə “Uçan çıraqlar” adlı ilk şeirlər kitabını çap etdirmişdir. İlhamının tüğyan etdiyi bir vaxtda, onun ilk yaradıcılıq nümunəsi Azərbaycan uşaq ədəbiyyatına yeni nəfəs verəcək bir qələm sahibinin gəlişindən xəbər verirdi. Uşaq

dünyasını, real həyat hadisələrini, səbrlə, müdrikcəsinə müşahidə edən, tükənməz şairlik potensialına güvənərək müşahidələrini potik təsvirlərdə canlandıran və həmişəyaşar obrazlara çevirən müəllif bədii axtarışları ilə ucsuz-bucaqsız söz və ifadələr okeanı yaratdı, yeni ədəbi nəslin öncüllərindən birinə çevrildi.

Bədii yaradıcılığa və filologiya elmi sahəsinə paralel olaraq nüfuz edən bu gənc öz potensial imkanlarından məharətlə istifadə edərək 1974-cü ildə namizədlik dissertasiyası müdafiə etdi. Onun "Azərbaycan uşaq poeziyası və folklor" mövzusundakı elmi işi folklorun peşəkar yazılı bədii söz sənəti ilə bağlılıq tellərini daha dərindən üzə çıxartdı. Bədii fikrin, məcaz növləri və poetik fiqurları folklor mümunələrdə axtaran və araşdıran gənc alim-şair bitkin elmi əsər ərsəyə gətirdi. Şifahi ədəbiyyatla yazılı ədəbiyyatın fərqindəki incəliyə nəzər yetirən Z.Xəlil belə bir fikir irəli sürdü ki, yazılı ədəbiyyatda verilən poetik obrazlılıq sənətkarı sənətkardan fərqləndirmək imkanlarını özündə saxlayır. Burada fərdi istedad və fərdi bədii üslub həlledici rol oynayır. Uşaq şeirinin hər misrasına, hər qafiyəsinə poetik kəşf kimi baxan müəllif seçim etdiyi şairlərin yaradıcılığına nüfuz etmiş, bu sahədə dünyəviliyin, milli koloritlilik keyfiyyətlərinin vacibliyini önə çəkmişdir.

Bu gün də Azərbaycan Dövlət Pedaqoji Universitetinin auditoriyalarında tələbələrə mühazirələr oxuyan, ədəbiyyatın nəzəri və praktik məsələlərindən söhbət açan Z. Xəlil bədii yaradıcılıq sirlərini öyrənmək istiqamətində yorulmadan tədqiqatlar aparır, poetik fikirlər sistemini araşdırır. Həmçinin, istedadlı alim-yazıçı çoxsaylı müəllim kollektivinə malik olan kafedraya rəhbərlik edir. Ömrünün ən qiymətli illərini müqəddəs işlərə sərf edən, üç sahənin sintezindən ərsəyə gələn,

püxtələşmiş qələm sahibinə çevrilən Z.Xəlilin tükənməz enerjiyə malik olması onun sonrakı yaradıcılıq imkanlarının genişliyindən və əldə edəcəyi uğurlardan xəbər verir.

Bir qələm sahibi kimi Z.Xəlil yaradıcılığının sirri olduqca sadədir. O, sadəcə olaraq dövrün elmi sferasını dərindən duyur, müasir ədəbi prosesin məfkurə istiqamətini, mənəvi-estetik dəyərini, öz oxucularının mənəvi tələbatını real şəkildə dərk edir. Vətənə məhəbbət hissləri aşılayan, şüuru formalaşdıran əsərlər yazmağı daha üstün tutur, uşaqlara maraqlı görünən, həyat müşahidələrindən doğan mövzuları ədəbiyyata gətirir və orijinal obrazlar silsiləsi yaratmağa çalışır.

"Torağaylar oxuyur" şeirlər kitabının və "Ballıca" adlı ilk uşaq nəsrinin çapından sonra Z.Xəlil yaradıcılığına maraq daha da artdı.

Müəllifin "Ballıca" adlı kitabındakı kiçik hekayələrin əksəriyyətinin sujeti əhvalatlardan çox, hiss və düşüncələri, obrazların mənəvi aləmini əhatə edir. Buna misal olaraq, "Papaq" hekayəsinin məzmununu göstərmək olar. Hekayədə ana papağını itirdiyinə görə qızını danlayır. Papağın bahalı olduğunu bildirir. Uşaq isə susur. Müəllif ananın sözlərinə uşağın necə reaksiya verdiyini təsvir etmir. Uşaq həyətə çıxıb pişik balalarına papağın çox qiymətli olduğunu söyləyir və onları belə bir papaqda soyuqdan qoruduğuna görə qürrələnir. Ana pəncərədən qızının söhbətini eşidir və gülümsünür...

Müəllif hekayədə uşağın balaca heyvanları sevməsini uzun-uzadı təsvir etmir, kiçik bədii detallarla oxucusunu düşündürür, onda heyvanlara qayğı ilə əlaqədar assosasiyalar yaradır.

Bizim bağçamıza bir çəmən düşüb,
Sürüşüb baharın çiynindən düşüb...

Tənqidçi-alim, akademik Bəkir Nəbiyev “Uşaq ədəbiyyatımız müasir mərhələdə” adlı məqaləsində Z.Xəlil yaradıcılığından bəhs edərək yazır: “Hələ “Torağaylar oxuyur” kitabındakı:

Bax, bu ağac gilasdı,
Yaz gəldi, bu ağacın
Budağından gül açdı, -

qəbildən olan şeirləri ilə balacaları riqqətə gətirən Zahid Xəlil “Ballıca” adlı kitabındakı nağıl və hekayələrlə onları daha da sevindirdi. Bu əsərlər uşaqlar üçün “Məlik Məmməd” və “Cırtdan” kimi, Andersen və Qrimm qardaşlarının nağılları kimi cazibədər və ürəkaçandır”.

Bu deyilən fikir Z.Xəlilin bədii yaradıcılığına yüksək qiymət kimi dəyərləndirilməlidir.

## Bölmə II

## Yubiley tədbirlərinin keçirilməsi

Bu gün Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrindən biri, əsərləri dünyanın bir sıra dillərinə tərcümə olunmuş, bədii yaradıcılığı çoxşaxəli olan, coşqun ilhamla qələmə sarılan Zahid Xəlil yaradıcılığından söz açırıq. Z.Xəlilin ədəbi yaradıcılığı dünya xalqlarının bir çox dilinə, o cümlədən rus, Litva, latış, eston, moldav,Ukrayna, gürcü, özbək, qazax, türkmən, eləcə də alman, fin, yuqoslav, holland dillərinə tərcümə olundu və daha cox məşhurlaşdı. Onun uşaqlar üçün yazdığı şeir və hekayələr təkcə rusiyanın uşaq mətbuatında (“Murzilka”, “Vesyolie kartinki”, “Pioner”, “Kolobok”) deyil, eyni zamanda daha çox tirajla buraxılan “Nedelya”, “Literaturnaya qazeta” və “Rabotnitsa” kimi qəzət və jurnallarda

müntəzəm dərc edildi. Elə bu baxımdan da Zahid Xəlil "Kölgələr" və "Limonad içməyin" hekayələrinə görə "Literaturnaya qazeta"nın "Zolotoy telyonok" mükafatına layiq görüldü.

Bəli, bir sözlə uşaq ədəbiyyatımızın köklərini arayıb-axtarmaqda, bu gün ilə bağlı problemləri araşdırmaq yolunda xeyli zəhmət çəkmiş uşaq şairi Zahid Xəlilin 80 yaşı tamam olur. Bu münasibətlə respublikamızın bir çox təhsil ocaqlarında, məktəblərdə, kitabxanalarda, bir sıra mədəniyyət ocaqlarında silsilə tədbirlərin keçirilməsi nəzərdə tutulmuşdur. Belə tədbirlərin keçirilməsi Zahid Xəlilin zəngin ədəbi irsinin oxucular arasında yayılmasına xıdmət edir. Onun yaradıcılığının geniş təbliği üçün kitabxanalarda ilk növbədə kitab sərgisi təşkil olunmalıdır. Sərgi müxtəlif başlıqlar altında keçirilir. Məsələn: "Z.Xəlil-80", "Uşaqların sevimli yazıçısı", "Uşaqların yaxın dostu", "Z.Xəlil Azərbaycanın müasir uşaq yazıçılarından biri kimi" və s.

"Zahid Xəlil Azərbaycanın müasir yazıçılarından biri kimi" adlı sərginin nümunəsini sizlər üçün təqdim edirik.

1.Başlıq:"Zahid Xəlil Azərbaycanın müasir yazıçılarından biri kimi"

2. Görkəmli insanların Zahid Xəlil haqqında söylədikləri.

3. Kitablarının nümayişi.

4. Dövrü mətbuatda çap olunan məqalələrin kartotekası.

5. Foto albom.

6. Şeir parçası.

Qarabağda nə gördün?
Sabah gəl söylə bizə.
Çiçək kimi səpələ
Gülüşü üstümüzə.

**Kitablarının nümayişi:**



















ЗАҺИД ХӘЛИЛ
ЧЫРАГ НӘНӘНИН НАҒЫЛЛАРЫ


ЗАҺИД ХӘЛИЛ
Цыртданла Азманын јени сәркүзәштләри


Zahid
XƏLİL
DÜNYANIN ƏN BALACA NAĞILLARI


YUMRU YUMAK
ZAHİT HALİL


Ağ leyləklər
ZAHİD XƏLİL


DOSTLARIN NAĞILLARI
Zahid Xəlil
ŞƏKƏRABAD ŞƏHƏRİNİN UŞAQLARI


Zahid Xəlil
SEÇİLMİŞ ƏSƏRLƏRİ

https://drive.google.com/file/d/1klo_SwTg16_xKZVW6oYThy-UJDG9PZ5u/view

https://drive.google.com/file/d/11lO6ZX3sXKOfVqREHbX-NQwFM5QbE_nH/view

https://drive.google.com/file/d/1EtHlvHj4FHQAEbsn7Pm6ltswnHmho0c4/view

https://drive.google.com/file/d/1Bgo-vtiJv1j6NzqOe7q50bkJw8cOABPO/view

https://drive.google.com/file/d/1rxAP-aI7H68VDg0VNzpfHbG3DshudBMC/view

https://drive.google.com/file/d/1qNcEzimpOC0shLwZXlS7o3o3IvhAB_g6/view

https://drive.google.com/file/d/1KToDIxrErH2l1YXq-O7lrnUa360aBsQY/view

https://drive.google.com/file/d/1afHQZGq-75z5rznsz2R6u67tpUHWIFCO/view

https://drive.google.com/file/d/1Hf-EEUXRgpCUw7BL2LR8si91XeWCkqnF/view

https://drive.google.com/file/d/1meZK0ud0BCAeswwzFjFKQteQDRslsPCe/view

https://drive.google.com/file/d/1_t-RmlGux_lz_AwI4XHVHrMMeEndt404/view

**Görkəmli şəxsiyyətlərin Zahid Xəlil haqqında söylədikləri**

Bu gün uşaq nəsrimizin orijinal nümayəndələrindən biri olan Zahid Xəlil əsasən şair kimi tanınır. Bəlkə bunun başqa səbəbi də var. Zahid Xəlil nəsri şair kimi yazır. Zahid Xəlil uşaq ədəbiyyatımızın ən yaxşı təbliğatçısı, görkəmli uşaq ədəbiyyatı mütəxəssisidir.

**Hikmət Ziya,**
*Şair, tərcüməçi*

"Zahid Xəlilin şeirləri və nağılları Azərbaycanda, yəqin ki, bütün uşaqlara tanışdır. Bakıda, şmaxıda, Xaldanda, Şuşada, Yevlaxda gördüyüm uşaqlardan soruşmuşam: Nə üçün Zahid Xəlilin kitabçalarını belə çox sevirsiniz? Bəziləri belə cavab verir: Onun şeirləri nikbindir! Digərləri isə deyir: Onun şeirləri xeyirxahdır! Bəzən də belə deyirlər: Zahid Xəlilin kitabçaları maraqlı və ağıllıdır. Görünür ki, şair öz oxucularına çox yaxındır. Odur ki, uşaqlar onu sevirlər və bunun üçün şairə minnətdardırlar".

**Yuri Kuşak,**
*Rus şairi, yazıçısı, tərcüməçi*

Zahid Xəlilin uşaq ədəbiyyatının tədqiqində və təbliğində də böyük xidmətləri vardır. O, təkcə alı məktəb auditoriyalarında uşaq ədəbiyyatından mühazirələr oxumaqla kifayətlənmir, uzun illərdir ki, Azərbaycan Dövlət Televiziyasında "Çıraq", "Sərbəst düşüncə" verilişlərini araya-ərsəyə gətirir, uşaqları nəinki Azərbaycan, eləcə də dünya xalqlarının məşhur yazıçıları ilə tanış edir.

**Rafiq Yusifoğlu,**
*Şair, ədəbiyyatşünas*

Zahid Xəlil həyatını bütünlükdə uşaq ədəbiyyatına həsr edibdir. Zahid Xəlilin şeirlərində fikir aydınlığı, dilin sadəliyi onları daha da oxunaqlı və rəngarəng edir.

**Rafiq Yusifoğlu,**
*Şair, ədəbiyyatşünas*

Zahid Xəlilin uşaq ədəbiyyatına gətirdiyi yeniliklər bugünkü Azərbaycan ədəbiyyatına xas olan bir xüsusiyyətdir.

**İqor Motyaşov,**
*Tədqiqatçı*

Zahid Xəlilin nağıllarının gücü onun hüdudsuz fantaziyasındadır. Bu fantaziyalar uşaqların təxəllüyünü, yaradıcı düşüncəsini inkişaf etdirən gözəl sənət nümunələridir.

**Zemfira Tahirli,**
*Filologiya elmləri namizədi, əməkdar müəllim*

Azərbaycan uşaq nəsrinin inkişafında öz yaradıcılıq axtarışları ilə seçilən Zahid Xəlil uşaq dünyasının, uşaqların xəyal aləminin bədii inikasını yaratmaq üçün poeziyanın sehrli və sirli boyalarından məharətlə istifadə etmiş, uşaqların estetik-bədii zövqünü formalaşdırmaqdan ötrü bütün imkanlardan ustalıqla yararlanmışdır.

**Füzuli Əsgərli,**
*Filologiya elmləri namizədi*

Zahid Xəlilin poetik dünyasına etnolinqvistikanın prinsipləri baxımından yanaşdıqda aydın olur ki, onun şeirlərində dilin konativ, referent, fatik deyil, emotiv və potik funksiyaları qabarıqdır. Bu da "Qızlar şeir oxuyur sevgi yaşında" kitabındakı şeirlərin mövzu dairəsi ilə bağlıdır. Ədəbiyyatımızın görkəmli nümayəndəsi, türkün şair oğlu Zahid Xəlili Tanrı qorusun!

**Əzizxan Tanrıverdi,**
*Filologiya elmləri doktoru, professor*

Zahid Xəlil yaradıcılığı ilə uşaqları yaxından tanış etmək üçün kitabxanaçı şairin kitabları haqqında söhbətlər aparmalıdır. Məsələn, söhbətə aşağıdakı kimi başlamaq olar:

"Zahid Xəlil Azərbaycan poeziyasında görkəmli yer tutan şairlərimizdəndir. O, yaradıcılığının əsas hissəsini uşaqlar üçün şeir, nağıl, poema yazmağa həsr edibdir. Uşaqların sevə-sevə oxuduğu "Torağaylar oxuyur", "Ballıca", "Çıraq nənənin nağılları" və s. şeir və nağıllar Zahid Xəlil yaradıcılığının bəhrəsidir. Onun şeirlərinin əksəriyyəti uşaqları əməyə məhəbbət, həyatın mənasını başa düşmək, Vətəni sevmək, doğru danışmaq və s. bu kimi gözəl hisslər ruhunda tərbiyə etməyə xidmət edir. Zahid Xəlil yaradıcılığı bir məqsədə xidmət edir: "uşaqları ağıllı, qoçaq, işgüzar, zəhmətsevər görmək. Zahid Xəlilin uşaq şeirləri öz yığcamlığı ilə diqqəti cəlb edir. Az sözlə bütöv fikri ifadə etmək bacarığına malik olan şair bu üsuldan tez-tez istifadə etməyə çalışır, öz yığcamlıq prinsipinə sadiq qalır. Əziz uşaqlar, kitabxanamızda sizin sevimli şairiniz Zahid Xəlilin gözəl tərtibadda maraqlı kitabları var. Gəlin birlikdə bu kitabları oxuyaq ki, dünyaya, vətənə, körpələrə sevgimiz daha da artsın. İnanırıq ki, sizdən sonra gələn bacı və qardaşlarınız

Zahid Xəlilin şeir və nağıllarını daha həvəslə oxuyub, öyrənəcəklər.”

Tədbirin daha yaddaqalan və maraqlı keçməsi üçün kitabxanaçı Z.Xəlilin “Ları xoruzun nəğmələri” adlı hekayəsini uşaqlar üçün oxuyur.

Bu xoruzun təkcə pipiyi və gözləri qırmızı olsaydı, bəlkə də o heç belə fikirlərə düşməzdi. Onun bütün tükləri qırmızı idi. Hətta tüklərinin içində qırmızılıqdan tünd şabalıdı rəngə çalanı da vardı. Bax buna görə də həmin o ları xoruz günlərin birində belə qərara gəldi ki, bir qırmızı nəğmə oxusun. Elə qırmızı nəğmə ki, dünyanın bütün rənglərini çevirib qırmızı eləsin.

Səhərin açılmasına bir az qalmış var gücü ilə banladı:

-Quq qulu quuuu!

Səsi qulağına lap xoş gəldi. Meşələr onun quqqultusunu əks etdi və birdən gördü ki, günəş onun nəğməsindən elə qızarıb elə bil nəhəng dağ laləsidir. Hətta günəşin bu qədər qızarmasından xoruz bir az çaşdı da. Özünə gəlib dedi:

-Bax, belə qızararsan!

Sonra gördü ki, onun quqqultusu gilənara çevrilib budaqdan sallanır.

Başqa bir quqqultu isə pomidora çevrilmişdi. Quqqulular lalə olub çəmənliyə səpələnmişdi. Hətta bu səsdən almanın da yanaqlarına qırmızı xal düşmüşdü.

Bütün yarpaqları qırmızı olsa qəşəng görünər-dedi və işə başladı.

Çinarın nəhəng kölgəsində dimdiyini göyə qaldırıb qanadlarını şaqqıldatdı və bərkdən banladı:

-Quqqulu, quuuu! Quq qulu quuuu!

“Quqqulu quuu”-bunu bir az çox elədi ki, çinarın yarpağı qırmızı olsun. Səsin kəsib ağacın başına baxdı. Yarpaqlar xoruza əl edib onun nəğməsini alqışlayırdılar. Amma xoruz diqqətlə baxıb gördü ki, çinarın yarpaqları yamyaşıldır və belə qərara gəldi ki, bu dəfə onun quqqultusu qırmızı deyil, yaşıl qiqqultu imiş.

-Mənim nəğmələrim rəngbərəngdir-deyib qışqırdı. Quqqultusunun rənbərəng olduğunu bildkidən sonra daha onu saxlamaq olardımı? Gündə üç dəfə uzun-uzadı quqquldadı ki, dünyanın bütün rənglərini öz baxçalarına toplasın. Gözlərini yumub dimdiyini göyə tuşlayır, nazik uzun boğazını mümkün qədər bərk dartırdı ki, səsi gur və təsirli olsun. Hətta ürəyində belə qərara gəlmişdi ki, kəndin o biri başından onun səsinə cavab verən bütün xoruzlar lap havayı zəhmət çəkirlər.

Cünki onların nəğməsi rənbərəng ola bilməz. Bütün xoruzların səsini batırmaq niyyətinə düşdü və bir səhər lap hündürdən banladı:

-Quqqulu quuu! Quqqulu quuu! Quqqulu quuu!

Başqa xoruzların hamısı səsini kəsib ları xoruzu dinlədilər. Çünki onlar başa düşdülər ki, bu xoruzun işləri o qədər də yaxşı getmir. Axı o nə üçün bu qədər uzun “Quqquluquuu” eləməlidir?! Bizim qəhrəman isə xeyli beləcə quqquldadı və səsini kəsib gözlərini açanda gördü ki, ağacların yarpaqları sapsarı saralıb.

Qanadlarını şaqqıldadıb çəpərə elan elədi ki, bu gün onun nəğməsi sapsarı imiş. Nəğmələrini belədən –belə səpələyib

hətta otları, çiçəkləri də saraltdı və sonra bilmədi ki, neyləsin. Çünkü bütün yarpaqlar və otlar saralandan sonra bağça yaman qəmli görünürdü.

Ları xoruz daha bir neçə dəfə banladı ki, yarpaqlar yenidən yaşıllaşsın. Amma hər dəfə səsini kəsib gözlərini açanda başa düşürdü ki, yarpaqlar bir az da saralıb. Hətta bəziləri deyəsən onun səsindən çürüməyə başlamışdı:

-Bu nə iş idi mən tutdum. Bu sarı nəğmə hardan gəlib məni tapdı?

Tutduğu işdən peşman olub bir müddət banlamadı. Hamı elə bildi, xoruz xəstələnib. Amma o, yarpaqların əvvəlki rəngini qaytarmaq haqqında düşünür və bilmirdi necə banlasın ki, dünyanın əvvəlki gözəlliyi geri qayıtsın.

Bu dəfə xoruz gördü ki, çil toyuq bərkdən qaqqıldadı.

-Buna nə olub?-deyə hirsləndi. Hinə baxıb gördü ki, toyuq yumurtlayıb. Elə o saat başa düşdü ki, yumurtanı belə ağardan çil toyuğun qaqqıltısıdır.

-Yumurtanı ağartdın bəsindir, səsini kəs!-deyə onun üstünə xoruzlandı.

Amma çil toyuq səsini kəsmədi. Axşamacan qaqqıldadı və bir də baxıb gördülər ki, qar yağır.

Xoruz hirslənməyib neyləyəydi. Çil toyuq o qədər qaqqıldadı ki, axırda bütün dünya ağardı. İndi xoruz nə qədər banlamalı idi ki, qar əriyəydi və dünya əvvəlki qırmızı, yaşıl, sarı, mavi rəngini alaydı.

Amma xoruz ruhdan düşmədi. Səhərdən axşamacan banaldı və yalnız üç aydan sonra yerin qarını əridə bildi. Axır ki,

torpaqlardan yaşıl otlar çıxanda ları xoruz başa düşdü ki, zəhməti hədər getməyib, daha dünyanın rənglərini özünə qaytara bilib. Xoruz axırıncı dəfə banlayıb çil toyuqdan xahiş etdi ki, daha qaqqıldamasın. Çünki onun qarı əritməkdən başqa işləri də var. Səhərdən axşama kimi banlamaqdan pipiyi qıpqırmızı qızarıb. Elə gözləri və tükləri də banlamaqdan alışıb-yanır.

Çil toyuq onun pipiyinə baxıb sözlərinin doğruluğunu qaqqıldamaqla təsdiq etmək istədi. Amma dünyanın yenidən dümağ olmağından qorxdu. Sadəcə olaraq qanadları ilə torpağı eşməklə xoruzun sözlərinin haqlı olduğunu bildirdi.

Zahid Xəlilin yaradıcılığını yaxından izləmək üçün keçiriləcək tədbirlərdən biri də kiçik yaşlı oxucular üçün şeirlərin ucadan oxusudur. Ucadan oxu uşaqların ən çox sevdiyi tədbirlərdən biridir. Şeirlərin ucadan oxunuşu uşaqların diqqətini daha çox cəlb edir, onlarda şeirə qulaq asmaq, şeiri duymaq, başa düşmək qabiliyyətini daha da artırır. Məsələn, şairin "Kəklik", "Bülbül", "Qırqovul", "Hacıleylək", "Cüllüt", "Ulduzlar", "Cəh-cəh", "Dilarənin danası", "Günəş və nar" və s. kimi şeirlərinin ucadan oxusunu keçirmək olar: Biz isə "Dovşan və canavar" şeirinin ucadan oxusunu nümunə veririk:

Dovşan qurdu haqladı,
Quyruğundan saxladı.
Gəldi boz qoç, ağ qoyun,
Başladı min cür oyun.
Oynaqla ha oynaqla,
Çoban gəldi çomaqla.
Canavarı götürüb
Bir qazana basdılar.

Qoyun, keçi oynadı
Meşəyə düşdü haray.
Caldılar çağırdılar.
Vay, dədəm vay, nənəm vay,
Bu boyda yalan olar?!

Şeirin ucadan oxusundan sonra uşaqlara aşağıdakı sualları vermək olar:

1. Uşaqlar "Dovşan və canavar" şeirində dovşan kimi tutmuşdu?

   Dovşan qurdu tutmuşdu.

2. Məclisə kimlər gəldi?
   Məclisə dovşanın yoldaşları- boz qoçla, ağ qoyun.

3. Çoban gəldi nə etdi?
   Çoban canavarı götürüb qazana basdı.

4. Uşaqlar, siz belə bir hadisəyə inanırsınız?
   Xeyr, biz buna inanmırıq.

Bakı Ekspo Mərkəzində tanınmış uşaq yazıçısı, ədəbiyyatşünas alim, professor Zahid Xəlilin "Dəmir yumruq" dastanı" kitabının təqdimatı keçirildi.

VII Bakı Beynəlxalq Kitab Sərgisi çərçivəsində oktyabrın 9-da reallaşan təqdimatda çıxış edən müəllif kitab haqqında məlumat verdi. Qeyd etdi ki, kitabda Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun 44 günlük Zəfər yürüşü bədii-publisistik üslubda təqdim olunur: "Əslində, bu kitabın müəllifi Ali Baş Komandanın rəhbərliyi ilə cəbhələrdə igidlik göstərən, Vətən sevgisini öz həyatından üstün tutan qəhrəman döyüşçülərimizdir. İlham Əliyevin uzaqgörən siyasəti, qorxmaz komandanlığı altında Ordumuz 44 günə böyük bir tarix yazdı. Bu elə bir Qələbədir ki, dünyanın hərbi tarixçiləri

uzun illər onun sirlərini araşdıracaqlar. Dövlət başçısının dərin zəkası, uzaqgörən siyasəti, mərdliyi işğal altındakı torpaqlarımızı azad etməklə yanaşı, bizi daha cəsur, daha istiqanlı, daha müdrik millətə çevirdi və Azərbaycan xalqı müharibənin ağırlığını dəyanətlə ürəklərdə əritdi. Mən də bu şücaəti Qoca şairin dili ilə tərənnüm etdim.

Müəllif qeyd etdi ki, ömür imkan versə, bu dastanın yeni qəhrəmanlıq səhifələri yazılacaq: "Çünki hələ bu kitabın son nöqtəsini qoymağa macal tapmamış Prezidentimizin gələcəyə ünvanlanan fəaliyyətləri ümidimi daha da artırır".

Akademik İsa Həbibbəyli əsər haqqında qeyd etmişdir ki, bu kitab ideyası və mövzusu, bütün məntiqi və mənası ilə dövlət müstəqilliyinin inkişaf etdirilməsinə, bu günkü günün ideallarına tamamilə cavab verir. Zahid Xəlil Azərbaycanda uşaq ədəbiyyatının yaranması və inkişaf etdirilməsində böyük xidmətləri olan şairdir. Zahid Xəlil Sovet hakimiyyəti illərindən başlayaraq Azərbaycanda uşaq ədəbiyyatının inkişaf etdirilməsinə böyük töhfələr vermişdir. "Dəmir yumruq dastanı" Qarabağ savaşında - Vətən müharibəsində Azərbaycan Respublikasının Prezidenti qalib Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qazanılmış tarixi zəfərə həsr olunub. Əsər "Dəmir yumruq dastanı" adlandığı üçün dastan poetikasının prinsiplərinə əsasən şeirlə nəsrin növbələşməsindən yaranıb: "Bu əsəri uğurlu ədəbi hesabat kimi qiymətləndirirəm. Müstəqilliyin bərpası günü bu əsərin müzakirəsi xüsusi əhəmiyyətə malikdir. **"Dəmir yumruq"** dastanını sizə təqdim edirik:

"Dəmir yumruq" - bu gözəl söz
El-obanın dilindədir.
Dəmir yumruq dəmir kimi
Bir kişinin əlindədir.

Dəmir yumruq beş barmaqdı,
Amma böyük bir ölkədi.
Cəsarətdi, şücaətdi.
Nə tərəddüd, nə"bəlkə"di.

O anlatdı kimin təpə,
Kimlərin dağ olduğunu.
Kimin nacins olduğunu,
Kimlərin haqq olduğunu.

Hamı gördü həqiqəti,
O ədalət timsalıdı!
Düşmənlərin təpəsində
Bir fəlakət timsalıdı!

O anlatdı yer üzünə,
Məğlub nədi, zəfər nədi.
O adi bir yumruq deyil,
Nağıldakı möcüzədi.

Dəmir kimi, polad kimi
Birləşdirdi insanları.
İlin payız günlərinə,
O qaytardı ilk baharı.

Dəmir yumruq möcüzədi,
Sağdan vurdu, soldan keçdi.

Düşmən kəsdi qabağını
Dağdan vurdu, yaldan keçdi.

Yorulmadı, usanmadı,
Heç dərmədi nəfəsini.
Dəmir yumruq gedib tutdu
Qarabağın zirvəsini.

O yandırdı Qarabağda
Elin sönmüş çırağını.
Yağmalanmış torpağıma
Taxdı zəfər bayrağını.

Haqqı nahaqq etmişdilər.
O qaldırdı haqq səsini.
Onun polad iradəsi
Titrətdi Yer kürəsini.

Dəmir yumruq, ömrüm boyu
Sənə nəğmə deyəcəyəm!
O qüdrətli barmaqlara
Qızıl əlcək hörəcəyəm!

## Bayrağım

Üç çiçəkdən yaranmış
Bir çələngdi, bayrağım.
Tünd-qırmızı, yaşıl, göy
Rəngbərəngdi bayrağım.

Adi göy qurşağıdı,
Üç işıqdı bayrağım.
Bu torpağa, bu yurda
Yaraşıqdı bayrağım.

Heç vaxt nuru tükənməz
Üç çıraqdı bayrağım.
Qaranlığın üzünə
Şapalaqdı bayrağım.

Sən ona diqqət elə
Keçən zaman yanından.
Qırmızı rəngi alıb
İgidlərin qanından.

Onu bütün dünyada
Qırmızı rəng tanıdır.
Azadlıqçün çarpışan
Babamın vicdanıdır.

Yaşıl rəngi təmizlik,
Ləyaqət timsalıdır.
"İslamçılıq" deyirlər
Ədalət timsalıdır.

Mavi rəng türkçülükdür.
Türk, yəni basılmaz ər.
Bu ad ilə məşhurdu,
Dünyada çox zəfərlər.

Hər bayram günlərində
Qaldırın bayraqları.
Dünyaya şölə saçsın
Qəlbimin işıqları.

Yayılsın bu dünyaya
Vətənimin haqq səsi.
Yer üzünü bürüsün
Gur işıq şəlaləsi.

## Azərbaycan əsgəri

Ey Qorqud babamızın,
İgid Bamsı Beyrəyi!
Bu torpağın, bu xalqın,
Daim vuran ürəyi.

Vətən dara düşəndə
Şərəf bildin səngəri.
Düşmənə qənim oldun,
Azərbaycan əsgəri.

Xalqın xeyir-duası
Qüvvət oldu qolunda.
Əzdin o nankorları
Haqq, ədalət yolunda.

Döyüş meydanlarında
Möhkəm dedin sözünü.
Qarabağ torpağının
Sən ağartdın üzünü.

Cənab İlham Əliyev
Buraxmadı bir anı.
Mahir komandan kimi
Heyran etdi dünyanı.

Geydi döyüş paltarın
Sıyrıldı qılınc kimi.
Qoymadı Qarabağı
Qalsın bir qaxınc kimi.

Nə qədər ki, dünyada
Hələ var ağlı azlar.
Özgə torpaqlarına
Göz dikən yaramazlar.

Nə qədər ki, hələ də
Acı dadır həqiqət.
Demək ki, burnumuzun
Ucundadır fəlakət.

Nə qədər ki, dünyada
Hökm edəcək yalanlar.
Xəzinələr üstündə
Yatacaqdı ilanlar.

Yekə-yekə məmurlar
Qızaracaq, yanacaq.
Bir qarın yemək üçün
Ədaləti danacaq.

Hələ sənin iş yerin
Səngərlər olacaqdı!
Hələ çox-çox zəfərlər
Arxada qalacaqdı!

Təki dünya durulsun.
Başa vur döyüşləri.
Allah həmdəmin olsun
Azərbaycan əsgəri!

Zahid Xəlilin 80 illik yubileyi münasibətilə təşkil olunan tədbirlərdən biri də şeir müsabiqəsidir. Şeir müsabiqəsi oxucuların ən çox sevdiyi tədbirlərdən biridir. Tədbiri təşkil edən kitabxanaçı şairin bir çox şeirlərindən istifadə edə bilər.

Z.Xəlilin qələmə aldığı şeirlər o qədər ürəyəyatımlı və o qədər maraqlıdır ki, oxucular onun demək olar ki, bütün şeirlərini gözəl demək bacaığına malikdirlər. Tədbirdə iştirak edən oxucular gözəl şeir demək bacarığına görə münsiflər tərəfindən seçilir və mükafatlandırılır. İndi isə gəlin oxucuların ifasında "Sözdən söz düzəldək" şeirini dinləyək.

"Azərbaycan" sözündən,
Gəl təzə söz düzəldək.
Çaşmayaq, çaşdırmayaq,
Hər şeyi düz düzəldək.

Bu sözün həm CANı var,
Həm də ki, AZƏRi var.
Adında, ünvanında,
Pozulmayan ZƏRi var.

Bir basılmaz qaladı
Nə desən ona AZdı.
Bir NƏR oğlu Ərdi o,
YANAR dağdı ARAZdı.

Hər tərəfi gözəldi,
Gül-çiçəkli YAZ ı var.
Payızda qızıl NAR ı,
Son baharda NAZ ı var.

Bir gün sökdük "Maralgölü",
Yerə tökdük "Maralgölü".
Ondan təzə söz düzəltdik,
Hər birini düz düzəltdik.
Gör nə gəldi başımıza;
MARAL çıxdı qarşımıza,
LAMA çıxdı qarşımıza.
MARAL qaçdı ARAL gölə,

LAMA qaçdı MARAL gölə.
Bir sözdə çox söz gizlənir,
Sözdə sözlər əzizlənir.
Sözə baxın; UZUNHOQQAR
Bu sözdə gör neçə söz var?!
Sökülәndә UZUNHOQQAR
Birdən çıxdı neçə HOQQA
Üzdü göldə neçə NAQQA
Bir sözdə çox söz gözlənir,
Sözdə sözlər əzizlənir.

Zahid Xəlil yaradıcılığının oxucular arasında geniş təbliği üçün keçirilən tədbirlərdən biri də şairlə görüşdür. Bildiyiniz kimi, Zahid Xəlil F. Köçərli adına Respublika Uşaq kitabxanasının ən sevimli oxucularından biri hətta deyərdik ki, ev yiyəsidir. Kitabxananın ən iri layihələrində, keçirilən tədbirlərində Zahid Xəlil imzası var. Çünki, Zahid Xəlil hələ cavanlığından kitabxanın üzvü olmuş, daha sonra isə balaca oxucularının sevilən şairlərindən birinə çevrilmişdir.

Təşkil olunan tədbirə kitabxanaçı uşaq şair və yazarlarını, məktəb müəllimlərini, orta və kiçik yaşlı oxucuları və yubilyarın özünü dəvət edə bilər. "Uşaqların yaxın dostu" adlı tədbiri giriş sözü ilə kitabxananın müdriyyəti açır.

Zahid Xəlil Azərbaycan uşaq ədəbiyyatını dünya səviyyəsinə qaldıran görkəmli sənətkarlardan biridir. Onun nəsr əsərləri H.X.Andersen, C.Rodari, Qrimm qardaşları, E.S.Tomson, R.Kiplinq sənəti ilə səsləşən gözəl nümunələrdir. Z.Xəlilin qələmə aldığı hekayələr uşaq ədəbiyyatımızın inkişafında yeni bir mərhələdir. Bu hekayələr öz mənalığı ilə diqqəti daha çox cəlb edir. Az sözlə dərin fikirlər aşılamaq, uşaqları bu fikirlərin iştirakçısına çevirmək, onların düşüncə tərzini formalaşdırmaq əsas məqsəd kimi görünür. "Papaq", "Peçenyedən yaranmış qız", "Güzgü" , "İki adamcığaz", "Qırmızı papaq və canavar", "İki nar", "Qayıq sürən ayı balası"

və sair kiçik hekayələr Z.Xəlilin bişkin bir qələm sahibi olmasından xəbər verir.

Bir sözlə Z.Xəlil bütün hekayələrində oxucusuna yeni söz deməyə çalışır, onun təfəkkür tərzini genişləndirir və sübut edir ki, kiçik həcmli uşaq hekayəsində də ciddi ictimai fikirlər əhatəsinə görə daha genişdir.

Daha sonra söz Zahid Xəlilə verilir. Şair oxucuları, "Hamı yatır" şeiri ilə salamlayır.

-Daha yatmaq vaxtıdır,
Ay şəkərim, nabatım!
-Quşlar çöllərdə qaldı
Mən evdə necə yatım?
Görən gedib tapdımı
Yuvasını kəpənək?
Ulduzlara çatdımı
Düzəltdiyim çərpələng?
Çöldə canavarmı var
Ağaclar tir-tir əsir?
-Yat ay bala həyətdə
Dağlar da mürgüləyir,
Quş da, ilbiz də yatır.
-İndi sən deyəcəksən,
Hətta dəniz də yatır?!
-Əlbət ki, yatır, oğlum,
Onu oyatmaq olmaz!
-Ləpələr gurldayır,
Heç belə yatmaq olmaz!
O, yatmayıb, oyaqdır,
Elə çoşur-çağlayır!
-O da sənin kimidi
Yatan zaman ağlayır.
-Bəlkə də böcəklərdən
Yolda izdə azan var?
Yoxsa niyə vurnuxur,

-Quşun da, dənizin də,
Göylərdə anası var,
İndi gəlib çatacaq.
Şirin lay-lay deyəcək,
O dəcəllər yatacaq.
Anasının səsindən
Kirpikləri qovuşdu.
Bir az xəyala daldı,
Sonra nəsə soruşdu.
Deyəmmədi sözünü...
Ay parladı üfüqdə
Uşaq yumdu gözünü.

Tədbirin sonunda uşaqlar Zəhid Xəlil və uşaq yazarları ilə şəkil çəkdirirlər.

Zahid Xəlilin 80 illik yubileyi ilə bağlı keçirilən tədbirlərdən biri də ədəbi-bədii gecədir. Ədəbi-bədii gecəyə kitabxanaçı bir ay qabaqcadan hazırlaşmalıdır. Bu tədbirin keçirilməsində əsas məqsəd oxucuları şairin həyat və yaradıcılığı ilə yaxından tanış etmək, onun şeirlərini, nağıl və povestlərini təbliğ etməkdir. Tədbirə şairin qələm yoldaşları, ədəbiyyat müəllimləri, məktəblilər, yubilyarın özü dəvət olunur. Tədbir iki hissədən ibarət olmalıdır. Birinci hissədə şairin həyat və yaradıcılığı haqqında çıxışlar dinlənilir, ikinci hissədə şairin şeirləri, şeirlərinə bəstələnmiş musiqilər dinlənilir, hekayə, nağıl və poemalarından səhnəciklər göstərilir. **"Uşaqların yaxın dostu -Zahid Xəlil"** adlı tədbirin ssenarisini nümunə üçün veririk:
***"Balaca kibritlə böyük ocaqlar yandırmaq olar, balaca açarla iri darvazaları açmaq olar, balaca uşaq gözü ilə də bütün dünyanı görmək olar"*** adlı başlıq divardan asılır. Səhnə çiçəklərlə bəzədilir. Aparıcılar səhnəyə daxil olur.

I aparıcı: Əziz və hörmətli qonaqlar! Sizi salamlayır, tədbirə xoş gəlmisiniz deyirik! Bu gün həm böyüklərin, həm də uşaqların sevimli şairi Zahid Xəlilin 80 yaşı tamam olur.

Bu münasibətlə dəyərli oxucularımızı və Zahid Xəlili səmimi qəlbdən təbrik edirik.
Azərbaycan uşaq ədəbiyyatında özünə məxsus dəsti xətti ilə seçilən Z.Xəlilin ilk şeirləri "Ədəbiyyat və İncəsənət", "Azərbaycan gəncləri", "Azərbaycan müəllimi", "Azərbaycan pioneri", "Azərbaycan", "Ulduz", "Pioner", "Yeni Yevlax", "Mingəçevir işıqları" və bu kimi qəzət və jurnallarda dərc olunmuşdur.
Z.Xəlilin "Uçan çıraqlar" adlı ilk şeirlər kitabı 1969-cu ildə işıq üzü görmüş və daha sonralar "Qarışqalar", "Mən rəngləri tanıyıram", "Göydən üç alma düşdü", "Torağaylar oxuyur", "Quşlar, quşlar", "Qızlar şeir oxuyur", "Sevgi yaşında" adlı kitabları da oxucuların ixtiyarına verilmişdir.
1979-cu ildən başlayaraq isə Z.Xəlil qələmini nəsr sahəsində də sınamağa başlamışdır. Onun balaca oxucular üçün yazdığı "Ballıca", "Çıraq nənənin nağılları", "Cırtdanla Azmanın sərgüzəştləri" "Odlar yurdunun paytaxtı", "Mavi dəniz üzərində", "Orxan və dostları", "Dünyanın balaca nağılları", "Yumru yumaq və Qumru", "Ay leyləklər" adlı kitabları çapdan çıxmışdır. "Orxan", "Orxan , Vəfa və Bələk" kitabları ana dilimizlə yanaşı, ingilis dilində də nəşr olunmuşdur. Həmçinin şairin əsərləri Rusiyada, Fransada, Almaniyada, Çexoslavakiya və s.ölkələrdə yayımlanmışdır.
"Cırtdanla Azmanın yeni sərgüzəştləri" kitabı Azərbaycan Dövlət Nəşriyyat Komitəsinin müsabiqəsində birinci mükafata, "Salam Cırtdan" kitabı SSRi üzrə "İlin ən yaxşı uşaq kitabı" (1987) adına layiq görülmüşdür.
Z.Xəlil uşaqlarımız üçün müxtəlif janrlarda əsərlər yazmaqla yanaşı, bu ədəbiyyatın tədqiqi və tədrisi sahəsində də böyük zəhmət çəkmişdir. Həm namizədlik, həm də doktorluq dissertasiyasını bu ədəbiyyatın problemlərinə həsr etmişdir.

Həmçinin ali məktəblər üçün "Uşaq ədəbiyyatı" dissertasiyası hazırlamışdır.
O, yaradıcılığının böyük bir hissəsini uşaqlara həsr etmiş, yəni balaca uşaqların böyük dünyasına baş vurmuş, uşaq sevincini, uşaq kədərini onlarla bir yerdə yaşamışdır.
II Aparıcı: Zahid Xəlilin uşaq ədəbiyyatımızın ən yaxşı təbliğatçısı, görkəmli uşaq ədəbiyyatı mütəxəssisi olduğunu qeyd etməmək olmur. Uzun illər mavi ekrandan onun ədəbiyyatımız haqqında çox maraqlı uşaq psixolojiyasına, onların anlama səviyyəsinə uyğun elmi mühakimələrini dinləmişik.
Bir qədər də Zahid Xəlilin "Torağaylar oxuyur" kitabından danışmaq istərdik. Kitaba saf, təmiz uşaq aləminin gözəlliklərindən bəhs edən şeirlər daxildir.
Təbiət, onun sərvəti olan bitkilər, heyvanlar haqqında yazılmış şeirləri oxuduqca hiss edirsən ki, şair bu aləmə yaxşı bələddir.
Kitabdakı şeirlər "Cəh-cəh", "Yalan-palan" və "Bunlar da ki, nağıldı" başlıqları altında verilib. Bu da təsadüfi deyil. "Cəh-cəh" başlığı altında verilən şeirlərin hamısına min bir nəğməli quşların səsi-sədası hopub, bildirçinlərin, torağayların nəğməsi qarışıb.

Çöllər bahar həvəsiylə
Həzin-həzin səslənəndə,
Bir quş verdi torpağa hay.
Bunu görən başqa quşlar
Ona ad qoydu: "Torağay!"

"Kəklik", "Bülbül", "Qırqovul", "Hacıleylək", "Cüllüt" kimi şeirlərdə də quşların qəribəliklərindən danışılır. Onların hər birinin özünəməxsus hərəkətləri poetik detallarla göstərilir.

Ovçu bizim yerimizi
Bildi neyçin, bildi neyçin.
Mənim körpə balalarım,

Uçun, qaçın! Uçun, qaçın!
Birdən körpə bildirçin
Oxudu için-için.
“Anam hayanda qaldı,
Bir..bir..bir dinsin”.

Zahid Xəlil yaradıcılıqdan əlavə hətta bir vaxtlar Azərbaycan Dövlət Televiziyasında uşaq və yeniyetmələr üçün “Çıraq”, “Sərbəst düşüncə studiyası” verilişlərini araya-ərsəyə gətirmişdir. Bu verilişlərdə şair uşaqları nəinki Azərbaycan, eləcə də dünya xalqlarının məşhur uşaq yazıçıları ilə tanış edir və onlara imkan yaradır ki, öz fikirlərini düzgün şəkildə ifadə etsinlər.

Təbiətə uyğun dekorativ ağaclar, kollar, güllər və s. ilə bəzədilmiş səhnəyə kiçik yaşlı uşaqlar Fil, Kirpi, Arı, Qartal, Dələ obrazlarında sənnəyə daxil olurlar.

**Fil:**

Zooparkda fil gördüm,
Elə bildim qayadı.
Xortumu nə yekədi,
Ayaqları payadı.

**Kirpi:**

Meşədə kirpi gördüm,
Dedim yəqin ayının
İynəsi, sancağıdı.
Ya da kolluqda qalan
Bir çoban papağıdı.

**Arı:**

Vızıldayıb çəmənləri
Gəzir bir-bir arılar.
Çiçəklərin qulağına
Nəğmə deyir arılar.

**Qartal:** Şappıldadıb qanadını
Baxdı göyə,
Qayadan bir qartal uçdu.
Elə bildim bu qayanın
Bir parçası qalxdı göyə.

**Dələ:** Niyə xırdasan belə,
Ay dələ?!
Amma quyruğun
Yumşaq bir şələ.
Qaçıb çıxırsan
Budaqların başına.
Gözlə, birdən düşərsən
Uşaqların başına!

II aparıcı: Zahid Xəlilin yaradıcılıq imkanları genişdir. Onun 1987-ci ildə Moskvada çap olunmuş "Salam Cırtdan" kitabı "İlin ən yaxşı uşaq kitabı" müsabiqəsinin qalibi olmuş, "Literaturnaya qazeta"nın "Zalotoy telyonok" və "Qızıl qələm" mükafatlarına layiq görülmüşdür. Zahid Xəlilin yazdığı kitablar təkcə Azərbaycanda deyil, dünyanın bir çox ölkələrində yayılıb. Alman, ingilis, çex, polyak, ərəb dillərində çap olunmuş kitabları uşaqlar daha maraqla oxuyur, şeirlərini əzbərləyir, ondan yeni-yeni nağıl və şeirlər gözləyirlər. Saysız, hesabsız şeirlər və nağıllar yazan Zahid Xəlilin araya-ərsəyə gətirdiyi hər bir şeir və nağılları elə bil ki, şirin bir dünyadan uçub gəlir. Sanki bu şeirlər yazılmayıb, elə əvvəldən varmış.

Dimdiyi var iynə kimi,
Gözləri var düymə kimi.
Ayaqları bapbalaca,

Qonar hərdən bir ağaca,
Nəğmə deyər:bup-bup, bup-bup,
Meşəmizdə nə var, nə yox.

I aparıcı:Zahid Xəlilin yaradıcılığında şeir-yanıltmacların da xüsusi yeri var. Bu yanıltmaclar öz orginallığı ilə diqqəti daha çox cəlb edir, həmçinin kiçik yaşlı uşaqların düzgün tələffüz vərdişlərinin formalaşmasına və nitq inkişafının rəvanlığına əvəzsiz xidmət göstərir. Belə yanıltmaclardan "Tutu", "Aşır", "At" və s. misal göstərmək olar.

On iki yaşlı Tutu,
Çıxıb çırpırdı tutu.
Bir quş isə uzaqdan
Hey oxurdu: Tu-tu.

II aparıcı: Zahid Xəlilin geniş bədii yaradıcılığı Respublikamızın sərhədlərindən kənara çıxdıqca ədəbi əlaqələri daha da genişləndi. Müxtəlif dünya xalqlarının qələm sahibləri, şair və yazıçıları, tərcüməçi və tənqidçiləri onun yaradıcılıq laborotoriyasına daha dərindən nüfuz etməyə başladılar. Zahid Xəlilin bədii yaradıcılığına yaxından bələd olan rus tənqidçisi İ.Motyaşov belə demişdir:"Zahid Xəlil ona görə diqqəti cəlb edir ki, o, təkcə ədəbiyyat tarixçisi və tənqidçisi deyil, hər şeydən əvvəl yaxşı uşaq yazıçısıdır. Zahid Xəlilin uşaq ədəbiyyatına gəlmə səbəbi onun yaradıcılıq axtarışları və sənətdə novatorluğu ilə bağlıdır, bu isə müasir Azərbaycan uşaq ədəbiyyatında daha tipik səslənir".

I aparıcı: Yazıçının kiçik yaşlı oxucular üçün yazdığı "Cırtdanla Azmanın yeni sərgüzəştləri" povestindəki hadisələr uşaqların marağına səbəb olmuş və bu cəhətdən də sevilmişdir. Əziz uşaqlar, gəlin bu nağılı biz də xatırlayaq. Nağıllarda deyildiyi kimi biri vardı, biri yoxdu, Zahid babanın nağılında bir Cırtdan, bir də Azman var idi. Cırtdan bədəncə bapbalaca, Azman isə

yekəpər bir uşaqdır. Cırtdan bədəncə balaca olmasına baxmayaraq, qəlbi böyük amallarla çırpınır. O, həm ağıllı, xeyirxah və həm də çox qoçaqdır  O, dara düşən quşları, heyvanları həmişə xilas edir, mərdlik göstərir. Bu balaca adamcığaz ağlı ilə özündən çox böyük olan Azmana həmişə qalib gəlir.  Nağılda  nəhəngliyi ilə  hamını heyrətə gətirən Azman da maraqlı obraz kimi yadda qalır.  Cirtdan Azmanı heç xoşlamır, ona görə ki o, çox yatağan və tənbəldir.  Həm də onun gətirdiyi nağıllar o qədər uzundu ki, yazıq uşaqlar həmin nağıllara qulaq asanda üç gün, üç gecə yatmırlar. Uşaqların çoxu yuxusuzluq xəstəliyinə tutulub və bu da Cırtdanı çox qəzəbləndirir. Günlərin bir günü Azman belə qərara gəlir  ki, bütün işini-gücünü buraxıb Cırtdanı axtarıb tapsın, bu balaca zəvzəyi lap ölənə kimi döysün. Azman da ki, Cırtdanın bu hərəkətlərindən lap təngə gəlib. Buna baxmayaraq, hər gecə Cırtdan Azmanın cibində yatır. Onun cibində hər şey var. Və belə cibdə Cırtdanı tapmaqmı olar?!

("Cırtdanla Azmanın yeni sərgüzəştləri" povestindən "Azmanın Cırtdanı tutması" hissəsini kiçik yaşlı uşaqların ifasında izləyək)

II aparıcı: Beləliklə, bax bu iki qəhrəman hələ də Zahid babanın kitablarında yaşamaqdadırlar. İndi yəqin ki, Azmanla Cırtdanın yaşı mini keçib, lakin hələ də Azmanla Cırtdan uşaqların ən çox sevdiyi qəhrəmanlardır. Əziz uşaqlar yəqin sizin üçün də maraqlı olar ki, şairin  qələmə aldığı "Cırtdanla Azmanın yeni sərgüzəştləri" adlı povestindəki  "Cırtdan" sözü hansı mənanı verir. Nağılda "Cırtdan" sözü "cırt" yəni od, qığılcım kimi qırağa atılan  mənasını verir. Yəni şair nağılda qeyd etmək istəyir ki, Cırtdan od, qığılcım kimidir, heç nədən qorxmur, ən çətin məqamlarda belə hər şeyin öhdəsindən gələ bilir.

Müsahibələrininbirində"Cırtdan" obrazına necə baxırsınız? Bu obraz uşaqlara nə verir, onlara nə öyrədir? sualına Zahid Xəlil belə cavab verir.

- Mən Cırtdanı sevirəm. Çünki o, qeyri-adi uşaqdır. Bütün uşaqlar divdən qorxur, o qorxmur. Hamı yatır, o oyaqdır. Uşaqlar onun sözünə baxır. Cırtdan elə bu günün uşağıdır. Mən Cırtdan obrazını ədəbiyyata yenidən gətirdim. "Cırtdan və Azmanın sərgüzəştləri" əsərimdə Cırtdanın nə qədər zirək və ağıllı, Azmanın böyük və ağılsız olduğunu göstərdim. Cırtdan gecələr Azmanın cibində yatır, Azmanın xəbəri yoxdur, onu axtarır.

Bəli, Zahid baba bu nağılda uşaqlara elə bir hiss aşılayır ki, uşağın yaşının azlığı, körpəliyi onun böyük işlər görməsinə mane ola bilməz. Əgər bu gün o, böyük, xeyirxah işlər görə bilməsə də heç olmazsa onu arzulayar və böyüyəndə həmin keyfiyyətləri özünün idealına çevirər.

Orta yaş qrup oxucuların ifasında Yeddirəngli Muncuq şeirindən bir parçaya qulaq asaq. Uşaqlar Böcək və Günəş geyimində səhnəyə daxil olurlar.

**Günəş:**

Ağlama, böcək,
Bir danış görək,
Nə olub axı?
Yaşıl gözündən
Niyə yaş axır?

**Böcək:**

İtirdim göy çəməndə
Anamın muncuğunu.
Hələ batma, ay günəş,
Axtarıb tapım onu.

**Günəş:**

Axı batmaq vaxtıdır,

Mən dayana bilmirəm.
Bu gün lap yorulmuşam
Daha yana bilmirəm!

**Böcək:**

Batma, bircə saat da
Gəl buraxma tək məni.
O muncuğu tapmasam
Anam döyəcək məni.
Nə yaman qızarmısan
Qan tökülür üzündən?!

**Günəş:**

Görürsən, axşam düşür?!
Getməliyəm daha mən.
Kəs telimin ucundan
Paltar geyin tacımdan.

Sən də parlaq olarsan
Gecə işıq salarsan.
Bir azdan günəş batdı
Dağın dalında yatdı.

**Aparıcı:**

Günəşin şüasından
Paltar geyindi böcək.
Elə ki axşam düşdü
İşıldadı çıraq tək.

Uçdu çəmənə, dağa,
Başladı axtarmağa.
Yumru, qəşəng muncuğu

O yeddi rəng muncuğu.

Birdən onun gözünə
Qəfildən düşdü işıq.
Dedi: Balam, deyəsən
Lap doyunca yatmışıq?!

Elə bildi səhərdi
İstədi dura yerdən.
Qulağının dibində
Kimsə qışqırdı birdən:

Tapmışam, mən tapmışam
Qırmızırəng muncuğu!
Qaraxallı muncuğu
O yeddirəng muncuğu!
Sevindi Atəşböcək
Silkələndi gül, çiçək.

I aparıcı: Zahid Xəlil kitablarının birində balacalar haqqında belə yazır: "Balaca kibritlə böyük ocaqlar yandırmaq olar, balaca açarla iri darvazaları açmaq olar, balaca uşaq gözü ilə də bütün dünyanı görmək olar."Balaca uşaq gözü ilə bütün dünyanı görən və Cırtdanın, Çınqının, Aygəzin, Dəmirdabanın, Ballıcanın, Şeşəbığın, Orxanın simasında dünyanın sirlərini uşağa başa salan yazışının fantaziyası tükənməzdir. Zahid Xəlil bütün yaradıcılığı boyu kiçik açarla böyük qapılar açmağa üstünlük vermiş, dünyaya heyran uşaq gözüylə baxmış və bu yolda uğurlar qazanmışdır. Zahid Xəlilin nağıllarının gücü onun hüdudsuz fantaziyasındadır. Bu fantaziyalar uşaqların təxəllüyünü, yaradıcı düşüncəsini inkişaf etdirən gözəl sənət nümunələridir.

Oxucular səhnəyə daxil olur. Z.Xəlilin uşaqlar üçün “Küp” komediyasından bir səhnəni göstərirlər.

I Uşaq: -Tanıdım. Bu küp nağıllardan gəlib. Onu uçan boşqablar keçmişdən gətirib.

II Uşaq: -Bala Nəzər dünyanın ən tənbəl və qorxaq uşağıdı. Amma çölə çıxsa yaman olar.

I Uşaq: -Gəlin mahnı oxuyaq. Bəlkə çıxdı. (Oxuyurlar)

Gəl elə Həzər
Ay bala Nəzər
Küpdən çıx.
Ey qəşəng oğlan,
İgid qəhrəman,
Küpdən çıx.

Üç gün nə dindin,
Sən qalib gəldin
Nənəyə.
Qəfil bir əcəl
Vermədi macal
Danaya.

Balaca Nəzər,
Dünyanı gəzər.
Bu haqdı
Balaca Nəzər.
Qaraca Nəzər
Qorxaqdı.

(Uşaqlar nəğməni xorla oxuyub qulaqlarını küpə dirəyib qulaq asırlar).

Yenidən oxucular səhnəyə daxil olur. Bala Nəzəri canlandıran oxucu keçəli mahnı ilə çağırır.

Keçəl keçəl hazıya,
Keçəl mindi tazıya,
Sürdü hamamxanaya,
Hamamxana bağlıdı,
Keçəlin başı yağlıdı.
Keçəl keçəl noxudu keçəl
Arpa yeyər, buğda seçər.

Keçəl haran yaxşıdı
Dağdan aran yaxşıdı
Başın yetişmiş kələm
Bəs sənin haran yaxşıdı.

Keçəl keçəl Maniyə
Mindi Qulyabaniyə
Keçəl dedi vay başım
Qazanda qaynar aşım.

Zahid Xəlil hələ neçə illər bundan sonra da uşaqlar üçün gözəl, maraqlı şeirlər, nağıllar, tapmacalar yazacaqdır. Onun nağılları o qədər romantiq və zəngindir ki, uşaqlar bu nağılları oxumağa başladılarmı, daha ondan ayrıla bilmirlər. Nağıllarda hadisələr bir-birini elə maraqlı şəkildə əvəz edir ki, uşaqlar nağıl bitəndən sonra da kitabı əllərindən yerə qoymaq istəmirlər.

Ömrünün kamillik zirvəsinə qədəm qoyan Zahid Xəlil indi 80 illik ömrünü yaşayır.

Qocaman təhsil ocağımız olan ADPU-da uzun illərdir dərs deyən Z.Xəlil, hal-hazırda da bu uinversitetin "Uşaq ədəbiyyatı" kafedrasının müdiridir. Uşaq ədəbiyyatının problemləri ilə bağlı aparılan xeyli elmi-təqdiqat işinə rəhbərlik edir.

Bir sözlə, təhsildə, elmdə və ədəbiyyat sahəsində qazandığı nailyyətlərə görə Zahid Xəlil Azərbaycan Respublikasının “Tərəqqi” medalı ilə təltif olunmuş, “Literaturnaya qazeta”-nın “Zolotoy telyonok”, Azərbaycan Jurnalistlər Birliyinin “Qızıl qələm” mükafatının lauretadır.

Yubiley münasıbətilə Zahid Xəlili təbrik edir, ona cansağlığı və yeni-yeni yaradıcılıq uğurları arzulayırıq. İştirakçılar səhnəyə çıxıb Zahid Xəlilin qələmə aldığı şeirlərdən bir neçəsini söyləyirlər:

**UZUNDƏRƏ**

Yaz gəlmişdi bağça-bağa,
Quşlar oxuyurdu: cik-cirik!
Dimdik sola, quyruq sağa
Rəqs edirdi bir sərçəcik.
Tülkü baxırdı quşlara
Ağzının suyu axırdı
Deyib sərçəni çağırdı.
-Uzundərə oynayıram
Sən də öyrən qaydasını.
Bax beləcə rəqs eləsən,
Görəcəksən faydasını.
“Fayda” sözünü eşidib
O, şəklədi qulağını
Sağa çəkdi kəlləsini,
Sola atdı ayağını.
Tozu qaldırdı göylərə,
Çəmənliyi ayaqladı.
Şappıltıyla dəydi yerə,
Durub yenə oynaqladı.
Quşlar çaldı, o oynadı
O oynadı, quşlar çaldı.

Arada mayallaq aşdı,
Səntirlədi neçə kərə.
Dedi—nə vaxt qurtaracaq
Nə uzundu Uzundərə?!
Çırpıb körpə qanadını
Quşlar ona çaldı çəpik.
Baxıb tülkünün halına
Doyunca güldü sərçəcik.

**QORUQ**

-Bax bu gördüyün dağın
Döşü tamam moruqdu.
Amma gedə bilmədik...
-Niyə?
-Çünkü qoruqdu!
-Belə də qoruq olar,
Harda görünübdü bu?!
-Qonur ayı yaradıb
Bu gördüyün qoruğu.
Deyir ki, qoy yetişsin
Sonra  yeyək moruğu.

**HESAB DƏFTƏRİ**

Bu vurma cədvəlidi,
Bu vurulan, bu vuran.
Yeddi çox gülməlidi,
Onun beli əyridi.

Sən birə bax, birə bax,
Uzundraz, yaramaz.
Hansı rəqəmə vursan,
Ona təsiri olmaz.

Çəmbərquyruqdu iki,
Yoxsa əyribaş atdı?
Kimə vurdu özünü
İki dəfə çoxaltdı.

İki dəfə üç altıdı,
İki səkkiz on altı.

İki dördə vuruldu,
Dördün keyfi duruldu.
İki dənə dörd oldu,
Dörd dənə iki oldu.

Altı qaz üzür göldə,
Bu da ki, ovçu İki.
Çaxmağı çəkən kimi
Qazlar oldu on iki.

Sehrli çubuğunu
Üçə sarı uzatdı.
Üç qıvrıldı, açıldı,
Çevrilib oldu altı.

**KƏKLİK**

Qovduq,
Yorduq
Kəkliyi.
Quyruğu
Yoluq
Kəkliyi.
Üstünün
Naxışları
Çaylağın daşı kimi

İçməyə
Su axtarır
Duru göz yaşı kimi.

**DÖVŞAN VƏ KÖPƏK**
Sarı dovşan bostandan
Qarpız oğurlayanda
Keşik şəkən boz köpək
Duyuq düşdü bir anda.
Yüyürdü hürə-hürə:
"Bu bostana kim girə?"
Yumaq kimi büzüşüb
Dövşan kola girmişdi.
Böz köpək ona baxdı
Elə bildi yemişdi,
Bir az sərçəyə hürdü,
Bir az kölgəyə hürdü.
Gəlib çardağın altda
Yenə yerinə girdi.
Sonda **"Kitabların anası"** adlı şeir parçası ilə tədbir yekunlaşır.

I oxucu:

"Əlifba" kitabıdır,
Kitabların anası.

Hər hərf bir göyərçin,
Hər hərf su sonası.

Nə çox səs var dünyada
Adam səsi, quş səsi.
Təbiətin dili var,
Düşündürür hər kəsi.

Səslərdən söz yaranır,
Sözdən gözəl cümlələr.
Sözə "qızıl"deyibdi,
Söz qədrini bilənlər.

Böcəyin də səsi var,
Küləyin də səsi var,
Hər səsin də yazıda
Bir cür işarəsi var.

II Oxucu:

Səs yazılsa vərəqə
Çonüb hərf olacaq.
Qanad çalıb havada
Dəftərimə dolacaq.

"A" da "ana"deyirəm,
"V" da "vətən" kəlməsi.
Vətən ulu babamdır,
Vətən atamın səsi.

"Əlifba" xəzinədir,
Onda min inci yatır.
Hər şirin kəlməsində,
Uşaq sevinci yatır.

Gəlin heç tələsməyək,
Öyrənək "Əlifba"nı.
Bu dünyada onun tək
Əziz bir kitab hanı?!

## Ədəbiyyat sıyahısı


Seçilmiş əsərləri. I cild : uşaqlar üçün şeirlər. - Bakı : ADPU, 2008. - 388 s.

Seçilmiş əsərləri. II cild : kiçik nağıllar və hekayələr. - Bakı : ADPU, 2008. - 414 s. : rəngli foto.

Seçilmiş əsərləri. III cild : uşaqlar üçün nağıl - povestlər. - Bakı : ADPU, 2008. - 408 s.

Seçilmiş əsərləri. IV cild : nağıllar. - Bakı : ADPU, 2009. - 405 s.
: rəngli foto.

Seçilmiş əsərləri. V cild : gənclər üçün şeirlər, pyeslər, müsahibələr və xatirələr : ADPU, 2009. - 431 s. : rəngli foto.

Seçilmiş əsərləri. VI cild. - Bakı : ADPU, 2008. - 414 s. : rəngli foto.

Çınqı : nağıl. - Bakı : SkyG, 2016. - 48 s. : ill.

Dünyanın ən balaca nağılları : nağıl. - Bakı : Nağıl evi, 2002. - 150 s.

Günəşi qopartmaq istəyən ayılar. - Bakı : Elm və Təhsil, 2013. - 24 s. : rəngli il.

Qızlar şeir oxuyur sevgi yaşında : poeziya. - Bakı : ADPU-nun mətbəəsi, 2007. - 80 s. : portr.

Orxan və dostları : povest. - Bakı : ADPU nəşriyyatı, 2004. - 168 s.

Uşaq ədəbiyyatı : dərslik. - Bakı : ADPU, 2011. - 498 s.

Yumru yumaq və Qumru : 1-ci sinif şagirdləri üçün oxuyub anlama mətni və test tapşırıqları. - Bakı : ADPU-nun mətbəəsi,

2011. - 20 s. : il.

***Kiril qrafikası ilə***

Ballıca və fındıqburun, dəmirdaban, şeşəbığ haqqında nağıllar. - Bakı : Gənclik, 1981. - 248,  [1] s.

Cırtdanla Azmanın yeni sərgüzəşləri : Povestlar və hekayələr. - Bakı : Gənclik, 1986. - 340 s. : şək.

Çıraq nənənin nağılları. - Bakı : Gənclik, 1983. - 232 [1] s. : şək.

Quşlar quşlar : şeirlər. - Bakı : İşıq, 1977. - 30 s.

Mavi dəniz üzərində. - Bakı : Gənclik, 1990. - 36 s.

Mən rəngləri tanıyıram : kiçik yaşlı uşaqlar üçün şeirlər, yanıltmaclar və nağıllar . - Bakı : Gənclik, 1972. - 98 s.

Odlar yurdunun paytaxtı : uşaqlar üçün kiçik hekayələr. - Bakı : Gənclik, 1992. - 48 s. : şək.

Torağayqlar oxuyur : kiçik yaşlı uşaqlar üçün şeirlər. - Bakı : Gənclik, 1979. - 80 s.

# Uşaq ədəbiyyatımızın təbliğatçısı
# Zahid Xəlil

**(metodik vəsait)**

**Komputer yığımı**
**və dizayn:** **Könül Səmədzadə**

**Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;**
**E-mail:** info@clb.az.

**İnternet ünvanı: www.clb.az**